# Qəbələ - MDB-nin 2025-ci il üçün Gənclər Paytaxtı










Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Qəbələ - MDB-də Gənclər paytaxtı - 2025” beynəlxalq proqramının açılış mərasimi keçirilmişdir. Qəbələ Heydər Əliyev Konqress Mərkəzində təşkil olunan tədbirdə öncə Azərbaycan Dövlət Himni səslənmiş və “Qəbələ - Gənclərin Paytaxtı” adlı videoçarx izlənilmişdir. Tədbirdə çıxış edən Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva “MDB Gənclər Paytaxtı” layihəsinin mahiyyətindən danışmış, rayon sakinlərini, xüsusilə də gəncləri Qəbələnin MDB-də Gənclər paytaxtı seçilməsi münasibətilə təbrik etmişdir. Tədbirdə MDB baş katibliyinin üzvü Tatyana Kovaleva MDB-nin baş katibinin təbrikini oxumuş, Qəbələnin “MDB Gənclər Paytaxtı” statusunu təstiqləyən sertifikatı Qəbələ Rayon İcra Hakimiyyətinin Başçısı Səbuhi Abdullayevə təqdim etmişdir. Çıxış edən Səbuhi Abdullayev tədbir iştirakçılarını salamlayaraq belə möhtəşəm bir layihədə Qəbələnin yer aldığına görə əlaqədar təşkilatlara təşəkkürünü bildirmiş, bu il Qəbələnin həm də Azərbaycanda “İdman Paytaxtı” seçildiyini və ölkəmizdə baş tutacaq “III MDB Oyunları” çərçivəsində idman yarışlarının bir çoxunun Qəbələdə keçiriləcəyini qeyd edərək layihənin həyata keçirilməsində rayonumuza uğurlar arzulamışdır. Tədbirdə “Qəbələ-MDB-nin Gənclər Paytaxtı”nın loqosu tamaşaçılara təqdim edilmiş və “MDB Gənclər Paytaxtı”nın Himni səslənmişdir. Tədbir bədii hissə ilə davam etmişdir.



**Fotolar S. Umuyevindir.**

# Müasir media siyasəti: prioritetlər, uğurlar

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev də bu ənənələrə sadiq qalaraq siyai fəaliyyətə başladığı ilk vaxtlardan medianın inkişafına dövlət dəstəyini fəaliyyətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirdi. Dövlət başçımız söz və mətbuat azadlığının qorunmasını demokratiyanın əsas şərti kimi daim diqqətdə saxlayır.

Dövlət başçısının 2005-ci il 20 iyun tarixli Sərəncamına əsasən Azərbaycan milli mətbuatının 130 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması, “Əməkdar jurnalist” fəxri adının bərpa edilməsi, ilk dəfə olaraq mətbuat işçilərinin çoxsaylı mükafat, orden və medallarla təltif olunması, ölkə başçımızın jurnalistlərə doğma münasibətinin və verdiyi dəyərin təzahürü idi. 2003-cü ildə yaradılan, mətbuatın özünütənzimləmə orqanı və dövlət qurumları ilə mətbuat arasında münasibətlərin nizamlanması funksiyalarını yerinə yetirən Mətbuat Şurasının maddi-texniki bazasının möhkəmləndirilməsi, 30-dan çox müxtəlif mətbuat orqanı və informasiya agentliklərinin hər birinə 10 milyon manat maliyyə dəstəyi göstərilməsi, qəzetlərin nəşriyyatlara olan borclarının dövlət büdcəsi hesabına ödənilməsi ilə mətbuat orqanlarının maddi-texniki bazasının gücləndirilməsi, jurnalist əməyinin qiymətləndirilməsi işləri daha da sürətləndirildi.

2010-cu ildə milli mətbuatımızın 135, 2015-ci ildə 140, 2020-ci ildə isə 145 illik yubileylərinin keçirilməsi, yubileylər münasibətilə mətbuat işçilərinin təltif etməsi, onlara fəxri adlar verilməsi respublikamızda jurnalistlərin stimullaşdırılması istiqamətində həyata keçirilən kompleks tədbirlərdəndir. Dövlət başçısının Sərəncamına əsasən, 2005-ci ildə milli mətbuatın 130 illik yubileyi ilə əlaqədar qəzetlərin “Azərbaycan” nəşriyyatına olan 400 min manat məbləğində borcları silindi. 2008-ci ildə 38 mətbuat orqanının hər birinə 5 min manat, 2009-cu ildə isə 39 qəzet redaksiyasına ayrılıqda 10 min manat birdəfəlik maliyyə yardımı ayrıldı.

Ölkədə aparılan düzgün media siyasətinin nəticəsidir ki, yeni dövr milli mətbuatımızın inkişafı ilə bağlı fundamental qanunvericilik bazası təkmilləşdirilməkdədir. Dövlətimizin başçısının 2021 -ci il 12 yanvar tarixli “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı ilə ölkəmizdə media sahəsində islahatların daha sürətlə aparılması məqsədilə Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi” publik hüquqi şəxs yaradıldı. 2021 -ci il 30 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən media fəaliyyətini tənzimləmək və standartlaşdırmaq və media orqanlarının etik standartlara uyğun fəaliyyət göstərməsini təmin etmək baxımından mühüm əhəmiyyətə malik dövlət sənədi - “Media haqqında Azərbaycan Respublikasının Qanunu” imzalandı. Həmin qanun Azərbaycan Respublikası Konstitusiyasını əsas götürməklə bu sahədə fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını, həmçinin kütləvi informasiyanın əldə edilməsi, hazırlanması, ötürülməsi, istehsalı və yayımının ümumi qaydalarını müəyyən edir. Qanunun başlıca məqsədi ölkəmizin informasiya məkanının təhlükəsizliyini təmin etmək, yerli medianın Avropa standartlarına uyğunlaşdırılmış şəkildə inkişafına, sərbəst fəaliyyətinə təkan vermək, informasiya mühitini sağlamlaşdırmaq, rəqabət qabiliyyətini artırmaq, habelə jurnalistika peşəsinin nüfuzunu yüksəltmək, qorumaqdır. Yeri gəlmişkən, azadlığın təməl prinsipinin söz və mətbuat azadlığı olması Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır.

Prezident cənab İlham Əliyevin təsdiq etdiyi “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu”na əsasən media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) 3 il müddətinə vergilərdən azad edilməsi media orqanlarının maliyyə problemlərinin aradan qaldırılması, onların yeni qlobal çağırışlara uyğunlaşaraq daha peşəkar fəaliyyət göstərməsi, dünya standartları səviyyəsində informasiya təminatçısına çevrilməsi məqsədi daşıyır. Media reyestrinin yaradılması, jurnalistlərə vahid vəsiqələrin verilməsi, güzəştli ipoteka şərtlərindən media nümayəndələrinin yararlanmasının təmin olunması və digər üstünlüklər jurnalistlərə göstərilən diqqət və qayğının əməli təzahürüdür.

Ölkəmizdə mətbuata dövlət qayğısının bariz ifadəsi Mətbuat Şurasının yeni bina ilə təmin edilməsi, Prezident İlham Əliyevin 22 iyul 2010-cu il tarixdə - milli mətbuatımızın 135 illiyində həmin binanın açılış mərasimində iştirakı oldu.

Azərbaycan mətbuatı üçün digər böyük hadisə jurnalistlərin sosial müdafiəsinin möhkəmləndirilməsi, mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə yaşayış evlərinin tikintisidir. Dövlət başçımızın bunla bağlı 2010-cu və 2013-cü illərdə imzaladığı müvafiq Sərəncamlara əsasən jurnalistlər üçün iki ədəd 17 mərtəbəli bina inşa olunaraq istifadəyə verilmiş, həmin binalarda, ümumilikdə, jurnalistlərə 411 mənzil hədiyyə edilmişdir. Mənzil hədiyyə olunanların müxtəlif mətbuat nümayəndələri və fərqli siyasi əqidə sahibləri olması sosial ədalət prinsipinin gözlənildiyini bir daha təsdiq edir.

Mətbuatın inkişafı, azad medianın formalaşması, jurnalistlərin peşəkarlığının artırılması kimi mühüm məramа xidmət edən bu silsilə tədbirlər həm də Prezident İlham Əliyevin də vurğuladığı kimi, milli jurnalistikanın inkişaf konsepsiyasını, fəaliyyət strategiyasını həyata keçirmək məqsədi daşıyır: “...kütləvi informasiya vasitələri də ölkəmizdə həyata keçirilən köklü islahatlardan kənarda qalmamalı, kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi hazırkı dövrdə qlobal informasiya mühitinin müəyyənləşdirdiyi fəaliyyət prinsiplərinə uyğunlaşmalı, cəmiyyətimizin obyektiv və peşəkar şəkildə məlumatlandırılması sahəsində öz səylərini daha da gücləndirməlidir. Modernləşmə, rasionallıq, obyektivlik, kreativlik, qabaqcıl texnologiyaların geniş tətbiqi, aparıcı trendlərin izlənilməsi medianın inkişafını şərtləndirən başlıca amillər olmalıdır”.

**Azad MƏMMƏDOV, «Qəbələ».**